# Astara Pedaqoji Kolleci “Ən yaxşı yazı” müsabiqəsində tarix yazdı

**Yusif Şahnamazov,**
**Astara Pedaqoji Kollecinin tədris işləri üzrə direktor müavini**



Respublikamızın əksər KİV-ləri və internet saytları “Ən yaxşı yazı” müsabiqəsinin qalibləri mükafatlandırıldı” başlığı ilə xəbərlər dərc edir və həmin tədbirdən şəkilləri paylaşırlar. Həmin xəbərlərdə deyilir:

***“Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu ilə “Azərbaycan müəllimi” qəzeti redaksiyasının birgə təşkil etdiyi “Ən yaxşı yazı” müsabiqəsinə yekun vurulub. Bilik Fondunda qaliblərin mükafatlandırılması mərasimi keçirilib.***

***Fonddan bildirilib ki, tədbirdə hər iki qurumun rəhbərləri, müsabiqə qalibləri, təşkilat komitəsinin və münsiflər heyətinin üzvləri, KİV nümayəndələri iştirak ediblər.***

***Bilik Fondunun icraçı direktoru Oktay Səmədov, "Azərbaycan müəllimi" qəzetinin baş redaktoru Nurəddin Heydərov müsabiqənin gedişi və yekunları barədə iştirakçılara məlumat veriblər. Qeyd olunub ki, Bilik Fondu ilə "Azərbaycan müəllimi" qəzeti redaksiyası arasında əməkdaşlıq çərçivəsində keçirilən müsabiqəyə 2017-ci il martın 1-dən start verilib. Müsabiqəyə müəllimlərin şəxsi iş təcrübəsinə əsaslanmaqla təhsilin və müasir dərsin***

*aktual problemləri barədə metodik yazılar qəbul olunub. Məqsəd yaradıcı müəllimləri aşkara çıxarmaq, onları axtarışlara həvəsləndirmək və təcrübə mübadiləsinə cəlb etməkdir. Müsabiqədə orta məktəb müəllimləri ilə yanaşı, bağça və məktəb rəhbərləri, kollec və universitet müəllimləri də iştirak ediblər. Yazıların qəbulu üçün ayrılmış bir ay ərzində təşkilat komitəsinə 80-dən çox metodiki iş daxil olub. Dəyərləndirmə iki mərhələdə aparılıb. Birinci mərhələdə yazılara ayrı-ayrı fənlər üzrə təcrübəli müəllimlər, pedaqoq-metodistlər və alimlər tərəfindən baxılaraq müvafiq qiymətləndirmə aparılıb. Seçilmiş 28 yazı ikinci mərhələdə Azərbaycan Respublikasının Təhsil İnstitutu, "Azərbaycan müəllimi" qəzeti, Bilik Fondunun təcrübəli və peşəkar əməkdaşlarından ibarət münsiflər heyəti tərəfindən qiymətləndirilib. Nəticədə bir yazı I yerə, üç yazı II yerə, beş yazı III yerə layiq görülüb, qalan 19 yazının müəlliflərinə isə həvəsləndirici mükafatın verilməsi qərara alınıb.*

*Müsabiqəyə ölkənin 21 şəhər və rayonundan yazı təqdim edilib. Bakı, Sumqayıt, İsmayıllı, Şamaxı, Ağsu, Salyan, Astara, Sabirabad, Qubadlıdan olan müəllim və təhsil işçiləri "Ən yaxşı yazı" müsabiqəsində xüsusilə fəal iştirak ediblər.*

*"Azərbaycan məktəbi" jurnalının baş redaktoru Nəcəf Nəcəfov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Dövlət Pedaqoji Kollecinin direktoru Qulu Novruzov, Təhsil İnstitutu direktorunun müavini Faiq Şahbazov, professor İntiqam Cəbrayılov qalibləri təbrik edib, müsabiqənin əhəmiyyətini vurğulayıblar. Qaliblər belə bir müsabiqənin keçirilməsini təqdirəlayiq hal hesab edərək təşkilatçı qurumlara minnətdarlıqlarını bildiriblər. Xüsusilə rayonlardan olan müəllimlərin belə müsabiqələrə qatılmasını və yüksək qiymətləndirilməsini iştirakçılar zəruri stimullaşdırıcı amil kimi dəyərləndiriblər.*

*Tədbirdə müsabiqə qaliblərinin metodiki yazı nümunələrinin toplu şəklində nəşr olunması, qabaqcıl təcrübənin yayılması məqsədilə bölgələrdə fəaliyyət göstərən bilik evlərində ustad dərslərinin təşkil edilməsi qərara alınıb".*

Fərəhləndirici haldır ki, "Ən yaxşı yazı" müsabiqəsinin I dərəcəli diplomuna Astara Pedaqoji Kollecinin müəllimi Səbinə Cəfərli layiq görürülüb. Bu, gənc müəllimin həyatında ilk və böyük uğurudur. Müsabiqədə ölkənin nüfuzlu ali, orta ixtisas və ümumtəhsil məktəblərinin qabaqcıl, təcrübəli, adlı-sanlı müəllimlərinin iştirak etdiyini və dəyərləndirmənin iki mərhələdə kodlaşdırma üsulu ilə aparıldığını nəzərə alsaq Səbinə Cəfərlinin ilk yerə layiq görülməsi mühüm uğur sayılmalıdır. Səbinə müəllimə hələ gəncdir. İnanırıq ki, gələcəkdə onun xoş sorağını daha çox eşidəcək və uğurlu nəticələrinin şahidi olacağıq.

Digər sevindirici hal ondan ibarətdir ki, müsabiqənin II dərəcəli diplomuna kollecin metodisti, qabaqcıl təhsil işçisi Azad Abdullayev layiq görülüb. Azad müəllimin elmi-metodiki-pedaqoji mövzularda yazdığı məqalələr müxtəlif qəzet və jurnallarda dərc edilib. "Astara" qəzetinin səhifələrində də onun imzasına tez-tez rast gəlinir. 35 illik pedaqoji staja malik olan A.Abdullayev bütün şüurlu ömrünü gənclərin təlim-tərbiyəsi və onların Vətən üçün layiqli vətəndaş kimi yetişdirilməsi işinə sərf edib. Bu gün də coşqu ilə fəaliyyət göstərən Azad müəllim kollecdə öz təcrübəsini həvəslə gənclərə öyrədir.

Bu gün biz Astara Pedaqoji Kollecində yeni rəhbərliyin apardığı məqsədyönlü və keyfiyyətli idarəetmə işini xüsusilə qeyd etməliyik. Məhz müsabiqədə kollecin iki nümayəndəsinin I və II dərəcəli diplomlara layiq görülməsi həmin aparılan düzgün idarəetmə və tədris keyfiyyətinin yüksəldilməsi işinin nəticəsidir. Ağababa İbrahimovun kollecə rəhbərliyə gəldiyi gündən mədəni-kütləvi, ədəbi-bədii və milli-mənəvi dəyərlərə həsr olunan tədbirlərin keçirilməsi, nizam-intizamın gücləndirilməsi, tədrisin keyfiyyətinin yüksıldilməsi, kollecdə elmi mühitin yaradılması və s. istiqamətində göstərdiyi fəaliyyət öz bəhrəsini verməkdədir. Təsəvvür edin ki, adıçəkilən müsabiqəyə ölkənin 21 şəhər və rayonundan 82 yazı daxil olub. Onlardan ikisi kollecdən göndərilib və bu yazılar birinci və ikinci dərəcəli diplomlara layiq görülüb. Bu, Astara Pedaqoji Kollecinin bütün pedaqoji kollektivinin, eləcə də Astara təhsilinin tarixi uğurudur. Mükafatlandırma mərasimində iştirakçılar qaliblərin Astara rayonundan olduqlarını eşidəndə təəccüb dolu baxışlarını və görüntülərini gizlədə bilmirdilər. Onlar rayon müəllimlərinin - bir təhsil ocağının iki nümayəndəsinin - belə mötəbər müsabiqədə ilk yerləri tutmalarını heyrətlə qarşıladılar.

Qaliblərlə qısaca söhbətdə vurğuladılar ki, müsabiqədə iştirak etdiklərinə görə kollecin direktoru Ağababa İbrahimova minnətdardırlar. Çünki məhz Ağababa müəllim onları müsabiqədə iştirak etməyə həvəsləndirmiş və öz məsləhət və tövsiyələrini vermişdir.

Biz öz növbəmizdə qalibləri təbrik edir və onlara yeni-yeni zirvələr fəth etmələrini arzulayırıq.

Uğur olsun! Davamı gəlsin!